

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 18 fevral 2023-cü il №13 (2725) https://mod.gov.az Qiyməti 30 qəpik

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan bundan sonra da Avropanın enerji təhlükəsizliyində vacib rol oynamağa davam edəcək

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 59-cu Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniya Federativ Respublikasında səfərdədir.*







Fevralın 17-də dövlətimizin başçısı Münxendə Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms ilə görüşüb.

Prezident İlham Əliyev Almaniya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün yaxşı şəraitin yaradıldığını, alman şirkətləri ilə uğurlu təcrübəmizin olduğunu, ölkələrimiz arasında sənaye, ticarət və iqtisadiyyatın müxtəlif sahələri üzrə əməkdaşlıq əlaqələrinin mövcudluğunu qeyd edib.

Dövlətimizin başçısı ötən il Azərbaycanla Almaniya arasında ticarət dövriyyəsinin genişlənməsini yüksək qiymətləndirdi, qarşılıqlı ixracın artmasını müsbət amil kimi dəyərləndirib.

Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqının etibarlı tərəfdaşı olduğunu və Avropa İttifaqı ilə ölkəmiz arasında sıx münasibətlərin mövcudluğunu bildirib.

Görüşə görə təşəkkürünü bildirən Almaniyanın Şərqi Biznes Assosiasiyasının baş icraçı direktoru Mixael Harms dövlətimizin başçısı ilə sonuncu görüşünü məmnunluqla xatırlayıb. Bildirib ki, COVID-19 pandemiyasının törətdiyi fəsadlara baxmayaraq, Almaniya ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında və ticarət dövriyyəsində əsaslı artım var.

Prezident İlham Əliyev Azərbaycanda müxtəlif istiqamətlərdə, o cümlədən vergi və gömrük sahələrində həyata keçirilən islahatlar barədə məlumat verib, ölkəmizin xarici sərmayədarlar üçün cəlbedici investisiya məkanı olduğunu vurğulayıb. Dövlətimizin başçısı, eyni zamanda, ölkəmizdə azad ticarət zonasının yaradılması istiqamətində atılan addımlar, Azərbaycanın logistika və nəqliyyat imkanlarının artması barədə məlumat verib. Bu xüsusda Almaniya şirkətlərinin Azərbaycanda fəaliyyəti üçün geniş imkanların mövcud olduğunu diqqətə çatdırıb, Almaniyanın Şərqi Biznes Assosiasiyasını şirkətləri tanışlıq məqsədilə ölkəmizə səfərə dəvət edib.

Azərbaycan Prezidenti işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərinin həyata keçirilməsində alman şirkətlərinin təmsilçiliyi üçün geniş imkanların olduğunu bildirib.

Dövlətimizin başçısı, eyni zamanda, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində Azərbaycan iqtisadiyyatının inkişafı üçün strateji prioritetlərin müəyyənləşdirildiyini qeyd edərək, bu sahədə ölkələrimiz arasında, o cümlədən alman şirkətləri ilə əməkdaşlıq üçün geniş imkanların olduğunu deyib.

Prezident İlham Əliyev, həmçinin Azərbaycanda bərpaolunan enerjinin inkişafı məqsədilə həyata keçirilən layihələri, Avropa İttifaqı ilə ölkəmiz arasında enerji sahəsində tərəfdaşlığı qeyd edib, Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin iştirakı ilə ötən il Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində imzalanmış strateji sənədin əhəmiyyətini bildirib. Dövlətimizin başçısı ölkəmizin həm Xəzər dənizinin Azərbaycan sektorunda, həm də quruda böyük həcmdə bərpaolunan enerji potensialına malik olduğunu qeyd edib, Avropa İttifaqı ilə tərəfdaşlıq çərçivəsində bu layihənin inkişafı istiqamətində tədbirlərin həyata keçirildiyini deyib və alman şirkətləri ilə də bu sahədə əməkdaşlıq üçün böyük imkanların olduğunu vurğulayıb.

Prezident İlham Əliyev bu xüsusda Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış dördtərəfli memorandumun əhəmiyyətini qeyd edib.

Ətraflı məlumata görə minnətdarlığını bildirən Mixael Harms Almaniya şirkətlərinin Azərbaycanda məmnuniyyətlə fəaliyyət göstərdiyini vurğulayıb, Azərbaycanın alman şirkətlərinin birbaşa investisiyaları üçün cəlbedici məkan olduğunu, ölkəmizin nəqliyyat-logistika imkanlarının daha da genişlənməsinin alman şirkətləri üçün əlavə cəlbedicilik yaratdığını deyib. O, alman şirkətləri ilə birlikdə məmnuniyyətlə Azərbaycana səfər etmək niyyətində olduğunu diqqətə çatdırıb.

Mixael Harms Almaniya şirkətlərinin bərpaolunan enerji sahəsinə xüsusi maraq göstərdiyini vurğulayıb, bu sahədə də əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirib.

* * *

Fevralın 17-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Boru arzuları: Gələcəyə uyğun enerji təhlükəsizliyi" mövzusunda dəyirmi masa keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Ölkəmizin Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfədən danışan dövlətimizin başçısı bildirib ki, ötən il Azərbaycanın qaz təchizatının artırılması qısamüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə verilən töhfə idi. Orta və uzunmüddətli perspektivdəki hədəf isə Azərbaycan tərəfindən irəli sürülən Cənub Qaz Dəhlizinin genişləndirilməsidir. Prezident İlham Əliyev qeyd edib ki, 2027-ci ilədək TAP-la qaz nəqlinin indiki 11 milyard kubmetrdən 20 milyard kubmetrə, TANAP-la isə 16 milyard kubmetrdən 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur.

Ötən il Bakıda Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayenin iştirakı ilə Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalandığını xatırladan dövlətimizin başçısı vurğulayıb ki, enerji sahəsində Azərbaycan-Avropa İttifaqı əməkdaşlığı bu sənədə uyğun olaraq bundan sonra da genişlənəcək.

Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıqda bərpaolunan enerjinin xüsusi rolunun olduğunu deyən Prezident İlham Əliyev ölkəmizin son dövrlər bu sahədə bir sıra vacib addımlar atdığını diqqətə çatdırıb. Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycanda bu istiqamətdə artıq bir sıra layihələr həyata keçirilir, həmçinin 25 qiqavatadək enerji istehsalı ilə bağlı müxtəlif sənədlər imzalanıb. Bu isə Azərbaycanın istehsal etdiyi yaşıl enerjinin daxili istehlakla yanaşı, Avropaya ixrac edilməsinə də imkan verəcək ki, bu da orta və uzunmüddətli perspektivdə Avropanın enerji təhlükəsizliyinə töhfə olacaq. Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycan bundan sonra da Avropanın enerji təhlükəsizliyində vacib rol oynamağa davam edəcək.

Tədbirdə digər çıxış edənlər Azərbaycanın ötən dövrdə, xüsusilə keçən il Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni xüsusi vurğulayıblar, Azərbaycanla bu sahədə əməkdaşlığı yüksək qiymətləndiriblər və onun davamlı olacağına əminliklərini bildiriblər.

**AZƏRTAC-ın materialları əsasında**

# Müdafiə naziri azad edilmiş ərazilərdə aparılan tikinti işləri ilə tanış olub





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində müasir hərbi infrastrukturun yaradılması, eləcə də bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə tikintisi davam edən bir neçə hərbi obyektdə görülən işlərlə tanış olublar.

Məruzə olunub ki, şəxsi heyətin xidməti-döyüş fəaliyyətinin yüksək səviyyədə təşkili üçün burada qərargah binası, yataqxana, xidməti otaqlar, hamam-camaşırxana kompleksi, tibb məntəqəsi və digər infrastruktur obyektləri, eləcə də hərbi qulluqçular və onların ailə üzvləri üçün yaşayış binası tikilir. Bütün obyektlərin müasir avadanlıqlarla təchiz olunmasının nəzərdə tutulduğu qeyd edilib.

Tikinti-quruculuq işlərinin gedişatını yoxlayan müdafiə naziri inşaatın keyfiyyətli aparılması və vaxtında başa çatdırılması ilə bağlı aidiyyəti üzrə müvafiq tapşırıqlar verib.

# Azad edilmiş ərazilərdə bölmələrin xidməti-döyüş fəaliyyəti yoxlanılıb





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunda aparılan islahatlar çərçivəsində şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də bölmələrin döyüş hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər davam etdirilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrin xidməti-döyüş fəaliyyətini yoxlayıblar.

Müdafiə naziri döyüş mövqelərinə gələrək əməliyyat şəraiti ilə bağlı məruzələri dinləyib. Qeyd olunub ki, müasir texniki avadanlıqla təchiz olunmuş mövqelərdə qarşı tərəfin bütün fəaliyyətləri fasiləsiz müşahidə edilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, şəxsi heyətlə görüşən nazir onların döyüş ruhu və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib. Döyüş növbətçiliyinin daha keyfiyyətli təşkili və aparılması, şəxsi heyətin sayıqlığının artırılması ilə bağlı komandanlıq qarşısında konkret tapşırıqlar qoyub.




Sonra general-polkovnik Zakir Həsənov şəxsi heyətlə birgə çay süfrəsi arxasında söhbət edib, onların qayğıları ilə maraqlanıb.

Müdafiə Nazirliyinin rəhbər heyəti daha sonra növbəti hərbi hissəyə gələrək burada yaradılan şəraitlə tanış olub.

Bildirilib ki, Ali Baş Komandanın diqqət və qayğısı nəticəsində hərbi hissələrin döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılması üçün burada zəruri infrastruktur yaradılıb.

Hərbi hissədə yaradılan şəraitlə tanış olduqdan sonra general-polkovnik Zakir Həsənov şəxsi heyətlə birgə nahar edib.

Sonda müdafiə naziri Ali Baş Komandanın tapşırığına əsasən, hərbi qulluqçuların döyüş hazırlığının yüksək səviyyədə saxlanılması, eləcə də sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində aidiyyəti şəxslərə müvafiq göstərişlər verib.



# Təlim və Tədris Mərkəzində buraxılış mərasimləri keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində ehtiyat zabit və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kurslarının növbəti buraxılış mərasimləri keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də qardaş Türkiyədə baş verən zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Mərasimlərdə çıxış edənlər kursu müvəffəqiyyətlə bitirmələri münasibətilə məzunları təbrik edib, onlara gələcək xidmətlərində uğurlar arzulayıblar.




Məzunlar kurs müddətində qazandıqları bilik və praktiki vərdişləri xidmət yerlərində tətbiq edəcəklərinə, üzərlərinə düşən vəzifə borclarını layiqincə yerinə yetirəcəklərinə söz veriblər.

Sonda məzunlara sertifikatlar təqdim edilib və xatirə şəkilləri çəkdirilib.

Döyüş hazırlığı

# Vətəni anamız kimi sevir, gözümüz kimi qoruyuruq

*Döyüş fəaliyyətinin operativ və fasiləsiz təmin edilməsi üçün rabitə təminatının düzgün təşkili mütləq şərtdir. Bu gün Azərbaycan Ordusunda rabitəçilərimizin hazırlığı yüksək səviyyədə təşkil olunur. "N" hərbi hissəsində döyüş növbətçiliyi aparan rabitə bölməsində bu faktorun əhəmiyyətinin bir daha şahidi olduq.*



Leytenant Pərviz Davudovdan xidmət etdiyi bölmədə gündəlik fəaliyyətlə bağlı məlumat aldıq. "Rabitə bölmələri müxtəlif qoşun növləri arasında dayanıqlı, keyfiyyətli və etibarlı əlaqəni təşkil edir. Rabitə qoşun xidmətində önəmli vasitədir və rabitə təminatı əməliyyatın idarə edilməsində mühüm əhəmiyyətə malikdir. Ərazinin relyefi, iqlimi və məsafəsindən asılı olmayaraq bölmələrarası əlaqənin qurulması hərbi fəaliyyətin mühüm tərkib hissəsidir. Ordu rəhbərliyinin bu sahəyə olan diqqətinin göstəricisidir ki, bölməmizdə rabitə təminatı tapşırıqlarının lazımi səviyyədə təşkil olunması üçün arzu olunan şərait yaradılıb. Müasir tələblər çərçivəsində avtomatlaşdırılmış rabitə avadanlıqları bölməmizin istifadəsindədir. Bu sahə insandan yüksək praktiki və nəzəri bilik tələb etdiyindən, tabeliyimizdəki şəxsi heyətin ixtisas hazırlığına xüsusi diqqət yetiririk. Bu ixtisas insandan yüksək biliklə yanaşı, möhkəm səbir də tələb edir. Növbətçilik zamanı və yaxud təlimlərdə rabitə cihazlarında yaranan nasazlıq və ya qırılmalar tapşırığın icrasını ləngidə bilər. Bu problemin də vaxtında aradan qaldırılması üçün ixtisas biliklərinin lazımi səviyyədə mənimsənilməsi gərəkdir.



Çünki rabitənin əsas şərtlərindən biri fasiləsiz əlaqənin təmin edilməsidir. Ümumiyyətlə, rabitə xidməti çətin və məsuliyyətlidir. Bu məsuliyyət vərdişlərinin yaradılması üçün şəxsi heyət təlim-tədris prosesində iştirak edir, öz ixtisas, biliklərini daha da mənimsədikdən sonra döyüş növbəsinə çıxırlar. Həmçinin bölməmizin şəxsi heyəti çöl çıxışlarında, təlimlərdə, yarışlarda vəzifəsinin öhdəsindən layiqincə gəlir. Komandanlıq tərəfindən qarşıya qoyulan tapşırıqlar uğurla icra edilir, bölməmiz ona göstərilən etimadı qüsursuz xidmətləri ilə layiqincə doğruldur", - deyə zabit bildirdi. Söhbət əsnasında öyrənirəm ki, zabit Pərviz Davudov İkinci Qarabağ müharibəsində əsgər olaraq iştirak edib və Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə təltif edilib.

"Döyüşlər vaxtı da rabitəçi idim, bu gün də ixtisasım üzrə müqəddəs amala xidmət edirəm. Müharibədə bu ixtisasın vacibliyini və incəliyini daha dərindən başa düşdüm. Əlaqə vaxtında, lazımi səviyyədə qurulmasa, döyüşün idarəetməsi zəifləyər və bu ağır nəticələrə gətirib çıxarda bilər. Təqdir olunası haldır ki, müharibə dövründə də, post münaqişə dövründə də rabitəçilərimizin ümumi fəaliyyəti yüksək səviyyədə icra olundu və bu günün komandirləri olaraq gənc rabitəçilərimizin lazımi səviyyədə yetişdirilməsi üçün əlimizdən gələni edirik. Amalımız məlumdur - Vətənə layiqincə xidmət etmək, ordumuzun güclənməsində pay sahibi olmaq".

Döyüş növbətçiliyi aparan əsgər Həsən Qocayevlə tanış olduq. Komandiri dedi ki, Həsən öz ixtisasının incəliklərinə bələd olan, intizamlı və çalışqan əsgərdir. "Dövrümüz texnika-texnologiya dövrüdür", - deyən əsgər söhbətimizə qoşuldu. "Gənc yaşlarımdan texnikaya böyük həvəsim var. Qismət elə gətirdi ki, xidmətimin də texnologiya ilə bağlılığı var. Təcrübəli komandirlərim tərəfindən keçirilən dərslərdə bizə təhkim olunmuş rabitə vasitələrinin istifadəsi, səmərəli tətbiqi ilə bağlı nəzəri və praktiki dərslərdə iştirak etmişik. İxtisasımın məsuliyyətini və vacibliyini dərindən anlayıram. Növbətçilikdə komandaların düzgün qəbul edilməsi, aidiyyəti üzrə ötürülməsi, kanal tezliklərinin yığılması və digər fəaliyyətləri icra etməyi təcrübəli rabitəçi zabitlərimiz tərəfindən öyrənmişəm. Verilən tapşırıqları həvəslə yerinə yetirirəm. Nümunəvi xidmətimlə həm valideynlərimin, həm də komandirlərimin mənə olan ümidlərini layiqincə doğrultmağa çalışıram. Hər bir Vətən övladının borcu Vətən keşiyində layiqincə dayanmaqdır. Bu gün biz Vətənə övladlıq borcumuzu ödəyirik", - əsgər dedi.

Növbəti həmsöhbətim əsgər İsmayl Gülverdiyev də intizamlı, verilən tapşırıqların öhdəsindən layiqincə gələn Vətən müdafiəçilərindəndir. Əsgər qeyd etdi ki, ona təhkim olunmuş avadanlığın və texnikanın sazlığını daim nəzarətdə saxlamalıdır. "Təcrübəli komandirlərim rəhbərliyi altında keçirilən dərslərdə öz peşə vərdişlərimizi artırırıq, hərbi biliklərimizi daha da təkmilləşdiririk. Rabitəçi ixtisası da digər ixtisaslar kimi insandan ciddi məsuliyyət tələb edir. Çünki döyüş və ya təlimlərdə qarşıya qoyulan tapşırığın icrasında rabitə əlaqəsi çox vacibdir. Əlaqənin etibarlı, fasiləsiz və operativ olması mühüm faktordur. Məxfilik, təhlükəsizlik prinsipləri də hər zaman gözlənilməlidir. Döyüş növbətçiliyimizi yüksək səviyyədə təşkil edirik. Çünki bu günün Vətən müdafiəçiləri bizlərik. Vətən ata-babalarımızın əmanətidir. Onu anamız kimi sevməli, göz bəbəyimiz kimi qorumalıyıq".

**Baş leytenant**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**



Nümunəvi xidmət

# "Biz qalib ordunun məğrur əsgərləriyik"

Heç bir sözlə əvəz edilməyən, məzmun etibarilə çoxşaxəli olan "vətənpərvərlik" məfhumu insanda tədricən formalaşır. Ayaq basdığın, üzərində gəzdiyin müqəddəs Vətən torpağı dünyanı dərk etdikcə səni özünə bağlayır, ona sevgimiz artır. Vətənpərvərlik hissi o deməkdir ki, öz dövlətinin tərəqqisi üçün can yandırıb doğma xalqının tarixi və mədəniyyəti ilə fəxr edəsən, Vətənin rifahı, xoşbəxt gələcəyi naminə əlindən gələni etməklə, onu düşmənlərdən qoruyub uğrunda canından belə keçməyə hazır olasan. Budur, Vətənə layiqli övlad olmaq. Bu gün Azərbaycanda bütün bu hissləri özündə qoruyub saxlayan, ehtiva edən gənclik formalaşıb. O gənclər ki, Vətən müharibəsi başlayanda silaha sarılıb doğma Azərbaycanımızın ərazi bütövlüyü naminə ağır döyüşlərə atıldılar, düşməni torpaqlarımızdan qovdular. Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmrini şərəflə yerinə yetirərək şəhid, qazi, qəhrəman oldular.

Gənclərimiz doğulub böyüdüyü ana torpağı sevir, onu düşmənlərdən qorumağı özünün əsas vəzifə borcu kimi qəbul edir. Azərbaycan Ordusu vətənsevər gənclikdən formalaşıb möhkəmlənir və günü-gündən daha da qüdrətlənir. Vətənə xidmət etmək hər birimizin müqəddəs borcudur. Bu şərəfli borcu peşəkarlıqla yerinə yetirmək üçün Azərbaycan əsgəri üzərinə düşən vəzifələrə məsuliyyətlə yanaşır. Onlar ordu sıralarında Vətənə, torpağa ləyaqətlə xidmət edirlər. Belə vətənpərvər gənclərdən biri də əsgər Xaqani Ağayevdir. O, "N" hərbi hissəsinin mühəndis bölüyündə istehkamçıdır. Komandirlərinin və əsgər yoldaşlarının rəğbətini qazanan Xaqani verilən tapşırıqların öhdəsindən bacarıqla gəlir. "İşğaldan azad olunmuş ərazilərimizdə minaların və partlamamış döyüş sursatlarının təmizlənməsi istiqaməti üzrə Ağdamda, Tərtərdə keçirilən təlimlərdə, dərslərdə fəal iştirak etmişəm. Peşəkar istehkamçılarımız ən müasir minaaxtaran avadanlıqlardan, texnikalardan istifadə bacarıqlarını bizə böyük həvəslə öyrədirlər. Tezliklə işğaldan azad olunan torpaqlarımız minalardan təmizlənəcək. Xalqımız öz ata-baba yurdlarına qayıdacaq", - deyə əsgər bizimlə söhbətinə bu sözlərlə başladı.



Xaqani sözlərinə davam edərək bildirdi ki, əsgərlik, ordu həyatı, həqiqətən, kişilik məktəbidir. "Bu dönəmi keçmək, bu dönəmi yaşamaq hər bir Azərbaycan oğluna yaraşır. Hərbi xidmətə gələndə tam əmin idim ki, elimə, obama layiqli oğul, Vətənim Azərbaycanın sadiq əsgərlərindən biri olacam. Çünki orta məktəb illərindən hərbi dərslərə böyük maraq göstərirdim. Silahları söküb-yığmağı, hədəflərə atəş açmağı həmişə öyrənməyə çalışırdım. Bütün bunlar hərbi xidmətin ilk çətinliklərini dəf etməyimdə köməyimə çatdı. Təcrübəli zabitlərin aşıladığı hərbi bilik və bacarıqları mənimsəməkdə kömək oldu. Döyüş hazırlığını yüksəltməyə xidmət edən amilləri dərslərdə təcrübəli zabitlər həm nəzəri, həm də praktiki olaraq bizə öyrədirlər. Hazırlığımızı daima artırmalıyıq ki, döyüş qabiliyyətimiz yüksək səviyyədə olsun. Biz düşmən üzərində Zəfər qazanan qalib ordunun məğrur əsgərləriyik".

Əsgərin sözləri bir daha mənə onu deməyə əsas verdi ki, sənə Zəfər yaraşır, Azərbaycan əsgəri!

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş dəyirmi masa keçirildi

*Milli Müdafiə Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Regionda cərəyan edən proseslərin Azərbaycan Respublikasının milli təhlükəsizliyinə təsiri" mövzusunda dəyirmi masa keçirildi.*





Tədbirdə Milli Müdafiə Universitetinin rəhbər heyəti, Milli Məclisin deputatları, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Ümummilli Lider Heydər Əliyevin və Vətənimizin azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Öncə Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olundu.

Dəyirmi masanı açan Milli Müdafiə Universitetinin rektoru general-leytenant, professor Heydər Piriyev bildirdi ki, Milli Müdafiə Universitetinin qarşısında dayanan başlıca məqsəd Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müəyyənləşdirdiyi vəzifələr, respublikanın müdafiə nazirinin konkretləşdirdiyi tapşırıqlar əsasında ölkənin, müstəqilliyimizin və dövlətçiliyimizin müdafiəsini öz üzərinə götürəcək peşəkar kadrların hazırlanması olsa da, bu işi cəmiyyətdən, ətrafımızda baş verənlərdən təcrid edilmiş halda həyata keçirmək mümkün deyildir. "Biz də dünya birliyinin tərkib hissəsiyik və müasir dünyanın xarakterik cəhətlərindən biri də budur ki, sürətlə qloballaşan dünyada baş verən proseslərdən kənarda qalmaq, bu proseslərdən təsirsiz ötüşmək mümkün deyildir.

Dünyanın yenidən formatlanmasının getdiyi bir dövrdə Ali Baş Komandanın müəyyən etdiyi kimi, biz də dövlətçilik baxımından öz maraqlarımızı düzgün müəyyənləşdirməyi, qiymətləndirməyi və bu fəaliyyətimizi ona uyğun qurmağı bacarmalıyıq.

Bu prosesdə hərb işinin yerinin, strategiyasının düzgün müəyyənləşdirilməsi həm bu günümüz, həm də sabahımız üçün çox böyük əhəmiyyət kəsb edir. Biz çox şeylərin canlı şahidləriyik. Dünyanın bizə qarşı baş vermiş haqsızlığa biganə qalmayacağını 30 ilə yaxın bir müddət ərzində böyük ümidlərlə gözləyirdik. Milli varlıqları, dövlətçilik təfəkkürü şər və təcavüz üstündə qurulan Ermənistanın Azərbaycanın ərazilərini işğal altında saxlaması beynəlxalq normalar əsasında həll edilməli olduğu halda böyük geosiyasi oyuna çevrildi. Bu da son onilliklərin geosiyasi reallıqlarından biridir. Qarabağ ətrafında cərəyan edən hadisələr son onilliklərdə bölgədə, hətta dünyada gedən proseslərin mahiyyətini qoydu".

Bu il anadan olmasının 100 illiyini qeyd edəcəyimiz Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra dövlətimizin xarici siyasətinin necə şaxələndiyinin, Azərbaycanın beynəlxalq əlaqələrinin necə genişləndiyinin nəticəsi kimi respublikamız dünya birliyində öz haqlı yerini tutmağa başladığından söz açan general-leytenant Heydər Piriyev qeyd etdi ki, bunu həzm edə bilməyənlər, qəbul etmək istəməyənlər, yaxud öz maraqları üçün təhlükə kimi qəbul edənlər də az deyildi. 44 günlük Vətən müharibəsi bunu daha açıq şəkildə nümayiş etdirdi. Böyük Zəfərlə nəticələnən bu haqq mübarizəsi aydın şəkildə göstərdi ki, kim kimdir, kim haqqın yanındadır, kim beynəlxalq proseslərin haqq üzərində qurulmasının tərəfdarıdır və kim şərə, təcavüzə, haqsızlığa yer verməkdədir. Hörmətli Prezidentimiz İlham Əliyevin uğurlu xarici siyasəti



göstərir ki, Azərbaycan nəinki bölgə, hətta dünya siyasətinə təsir etmək imkanlarına malikdir. Bu təsirlər isə yalnız və yalnız beynəlxalq sülhün möhkəmləndirilməsinə istiqamətləndirilmişdir.

Beynəlxalq sülhə münasibətdə isə indi çox dövlətlərin öz yanaşmaları və meyarları var. Ermənistan belə bir sülhü başqa dövlətlərin ərazilərini işğal etməkdə görür. Belə siyasət himayədarlar tərəfindən dəstəklənəndə müəyyən nəticə ortaya çıxa bilər. Amma haqsızlıq üzərində qurulan siyasətin sonu yoxdur və bəlkə də çox ağır nəticələrə gətirib çıxara bilər. Bu məqam bizim ətraf qonşularımız üçün də dərs olmalıdır. Artıq elə bir dövrə gəlmişik ki, şovinizm, millətçilik, ekstremizm üzərində qurulan siyasət buna yol verən dövlətlərin özü üçün fəlakətlər yarada bilər. Biz bunların da şahidiyik və təəssüf ki, bizim ən yaxın qonşularımızın bu faktorlar üzərinə qurulan siyasəti dünyanı da, elə bizim bölgəmizi də çox böyük təhlükə məngənəsinə salmışdır.

General-leytenant, professor Heydər Piriyev onu da vurğuladı ki, istər müvafiq nəzəriyyə, istərsə də dünya təcrübəsi onu göstərir ki, istənilən dövlətin, o cümlədən də Azərbaycanın xarici siyasətinin səmərəliliyini təmin edən mühüm amillərdən biri də hərbi gücdür. "Düzgün, əsaslandırılmış dövlətçilik siyasətinə, güclü iqtisadiyyata, zəngin xalq mənəviyyatına əsaslanan hərbi güc düzgün xarici siyasətin icrasına lazım olan yolları açmaq qabiliyyətindədir. Bunu bizim son illərin də təcrübəsi göstərir. Biz Ali Baş Komandanın rəhbərliyi altında güclü orduya malik olmaqla, haqq işimizi dəstəkləyən dostlarımızdan faydalanmaqla bütün dünyanın gözü qarşısında həlli tapılmayan problemimizi həll etdik. Bununla biz həm də bölgədə sülhün və sabitliyin bərqərar edilməsi üçün yeni bir reallıq yaratdıq. Bu reallığı qorumaq üçün də bizə hər zaman güclü ordu lazımdır".

Dəyirmi masada Milli Məclisin deputatları Hikmət Məmmədov, Zahid Orucov, Elman Nəsirov, Elşad Mirbəşir oğlu, Aydın Mirzəzadə, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin direktoru Fərhad Məmmədov, Milli Müdafiə Universitetinin professorları Rasim Həsənov, Aqil Şahmuradov, Vüqar Məmmədzadə mövzu ilə bağlı çıxış edərək regionda cərəyan edən proseslərdən, müasir dünya düzəninin yaradılmasından, Azərbaycanın bu dünya düzənində öz mövqeyini möhkəmləndirməsində dövlətimizin apardığı müdafiə siyasətinin əhəmiyyətindən danışdılar.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**



# Hərbi tibb personalımızın Kahramanmaraşda fəaliyyəti davam edir

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun hərbi tibb personalı Kahramanmaraşda baş vermiş zəlzələ nəticəsində xəsarət alanlara tibbi yardım göstərməyə davam edir.

Hərbi həkimlərimiz Türkiyə Səhiyyə Nazirliyinin və Türkiyə Silahlı Qüvvələrinin nümayəndələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Növbəti 36 cərrahi əməliyyatı uğurla icra edən tibb personalı, eyni zamanda xəsarət alan 223 nəfərə də ambulator yardım göstərib.

Bu günədək ümumilikdə Azərbaycan Ordusunun təcrübəli tibb personalı tərəfindən 61 cərrahi əməliyyat icra olunub, 419 nəfər isə müayinə edilib və onlara ambulator yardım göstərilib.

Qardaş ölkədə fəaliyyəti yüksək qiymətləndirilən təcrübəli hərbi tibb personalımıza xatirə hədiyyəsi təqdim edilib.



Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən Azərbaycan Ordusunun 20 nəfərlik hərbi tibb personalı Türkiyəyə ezam olunaraq qardaş ölkədə zəlzələdən xəsarət alanlara tibbi yardım göstərir.

# Hərbi qulluqçumuz Türkiyədə kursu birinciliklə bitirib



Azərbaycan Hərbi Hava Qüvvələrinin hərbi qulluqçusu kapitan Yaqubov Tural Ağaəli oğlu Türkiyə Respublikasında təşkil olunan kursu birinciliklə bitirib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyənin Hava Tədris Komandanlığının məktəblərindən birində keçirilən ingilis dili kursunda Azərbaycan, Türkiyə, Qırğızıstan, Gürcüstan, Ukrayna və Mavritaniyadan olan hərbi qulluqçular iştirak ediblər.

Kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara sertifikatlar təqdim olunub.




*Nümunəvi xidmət*

# “Sevincliyəm ki, arzuma çatmışam, əsgərəm”

Rəşadətli Azərbaycan Ordusunun banisi Ulu Öndər Heydər Əliyev vətənpərvərlik hisslərini hər zaman yüksək qiymətləndirərək demişdir: "Hamımızın ümumi vəzifəmiz xalqımızda vətənpərvərlik, Vətən torpağına, millətə sədaqət, Vətən uğrunda şəhidliyə hazır olmaq hisslərini formalaşdırmaq, inkişaf etdirmək və təbliğ etməkdir".

Hər sahədə olduğu kimi, ordu sıralarında da Ümummilli Liderin irsinə sadiq olan gənclərimiz inamlı xidmət edirlər. Bu gün cəmiyyətimizdə vətənpərvərlik tərbiyəsində formalaşan gənclərimizin ən ümdə vəzifələrindən biri Vətənə olan övladlıq borcunu layiqincə yerinə yetirməkdir. Onlar əsgər olmağı, Vətəni qorumağı özlərinə mənəviyyat borcu bilərək, inamla xidmət edir, Hərbi Andа sadiq olurlar. Bunun bariz nümunəsi İkinci Qarabağ müharibəsi oldu. Məhz Azərbaycan əsgərinin şücaəti, Vətən sevgisi, mübarizliyi qələbə qazandı. Bu qələbə bir reallığın da bir daha təsdiqi oldu ki, böyüməkdə olan gənclərimiz həm ailələrində, həm də məktəblərdə vətənpərvərlik, milli-mənəvi dəyərlərə bağlılıq ruhunda tərbiyə olunurlar. Belə cəmiyyətdə formalaşan gənclər də hərbi xidmətə böyük həvəslə yollanır, vəzifə borclarının öhdəsindən məsuliyyətlə gəlir, torpaqlarımızı qətiyyətlə qoruyurlar.

"N" hərbi hissəsində xidmət edən əsgər Cavid Babayev də belə oğullardandır. Cavidi işğaldan azad olunan ərazilərimizdən birində yerləşən bölmədə tanıdım. Bölmənin zabiti Cavidin vəzifələrinin öhdəsindən layiqincə gəldiyini bildirdi. Verilən tapşırıqları vaxtında və dəqiq yerinə yetirdiyini, intizamlı əsgər olduğunu qeyd etdi. Cavidlə həmsöhbət olub, onu daha yaxından tanıdım. Əslən Neftçaladan olan Cavid Babayev Bakı Dövlət Sosial-İqtisad Kollecini bitirib. Məzun olduqdan sonra hərbi xidmətə yollanıb. Düşüncələrini bölüşən Cavid hərbi xidmətin əhəmiyyətindən, aşıladığı keyfiyyətlərdən danışdı: "Müstəqil həyata atılmağa hazırlaşan gənclərin fərqli arzuları, məqsədləri olur. Gələcək haqqında planlarımız bir-birindən tamam ayrı istiqamətlərə yönəlir. Lakin hamımızın bir ortaq düşüncəsi var - öncə Vətən. Hansı yola qədəm qoyacağımızdan asılı olmayaraq, ilk arzumuz hərbi xidmətə yollanmaqdır.



Sevincliyəm ki, arzuma çatmışam, əsgərəm. Anamız qədər sevdiyimiz Vətənimizi qorumaq hər birimizin borcudur. Hazırda əsgər olduğum, torpaqlarımızın müdafiəsində dayandığım üçün qürurluyam. Arzu edirəm ki, vəzifəmin öhdəsindən layiqincə gəlib, ailəmin yanına başıuca qayıdım".

"Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı", - böyük şairimiz Məmməd Araz belə deyirdi. Vətənpərvərlik bir fərdin ölkəsinə duyduğu sevgi və bağlılığıdır. Vətən sevgisi, Vətənə məhəbbət insanın daxilindən, qanından gəlir. Bu cəhətdən isə bizim gənclərimiz çox şanslıdırlar. Çünki vətənpərvər, döyüşkən, tarixə qəhrəmanlıq salnamələri ilə iz qoyan əcdadları var. Vətən sevgisi genlərinə hopan Cavid kimi gənclərimiz ailədə başlayan, məktəbdə davam edən və cəmiyyətdə formalaşan vətənpərvərlik tərbiyəsində böyüyürlər. Belə gənclərimiz Vətənə əsgər də olurlar, cəmiyyətə yararlı vətəndaş da. Bu istiqamətdə hərbi xidmətin də rolu danılmazdır. Əsgər Cavid Babayev də bu haqda fikirlərini belə dilə gətirdi: "Əsgərlik hər birimizin yararlı vətəndaş kimi formalaşmağımızda mühüm təsiri olan həyat məktəbidir. Burada hərbi biliklərə, döyüş vərdişlərinə yiyələnirik. Həm də müsbət keyfiyyətlər qazanır, fiziki və mənəvi-psixoloji cəhətdən formalaşırıq. Vətənpərvərliyin, Vətən sevgisinin əsl mənasını dərk edirik".

Cavidin düşüncələri bir daha sübut edir ki, gənclərimiz hərbi xidmətdə milli-mənəvi dəyərlərimizə sədaqətli, gələcəyin nümunəvi vətəndaşları kimi formalaşırlar. Həm də onun təsdiqidir ki, onlar əsgər olmağı, Vətəni qorumağı özlərinə müqəddəs borc bilir, vəzifələrinin öhdəsindən qürurla gəlirlər.

**Baş leytenant
Mahmud MÖHBALIYEV
"Azərbaycan Ordusu"**

# Qardaş Türkiyəyə yardım tədbirləri davam edir



Azərbaycan Ordusunun hərbi qulluqçuları və onların ailə üzvləri Türkiyədə baş vermiş zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə Müdafiə Nazirliyinin müvafiq hərbi hissələrində yaradılmış toplama məntəqələrinə yardım gətirməyə davam edirlər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, könüllü şəkildə gətirilən növbəti geyim, ərzaq məhsulları və digər zəruri əşyalar təyin olunmuş məntəqələrdə toplanıb çeşidlənərək bağlamalara yığıldıqdan sonra yük avtomobili vasitəsilə Türkiyəyə yola salınıb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən qardaş ölkəyə yardım tədbirləri davam edir.

# Daha bir qazimiz Vətənə qayıdıb

Vətən müharibəsi zamanı Xocavənd uğrunda gedən döyüşlərdə ağır yaralanan qazimiz Elsevər Sarvan oğlu Ağayev Türkiyədəki müalicəsini tamamlayaraq Vətənə qayıdıb.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Qeyd edək ki, "YAŞAT" Fonduna müraciət etmək və Fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədədir. Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https:yashat.gov.azreporttableau

Həmçinin Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

# Mühəndis təminatı üzrə tədbirlər davam etdirilir



Azərbaycan Ordusunun çətin relyefli və dağlıq ərazilərdə dislokasiya olunan hərbi hissələrində istənilən hava şəraitində xidməti-döyüş fəaliyyətinin təşkili məqsədilə zəruri tədbirlər davam etdirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Mühəndis Qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində təxliyə yollarının daim işlək vəziyyətdə saxlanılması, avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz və fasiləsiz hərəkətinin təmin edilməsi məqsədilə cari ilin fevral ayının 1-dən bugünədək Kəlbəcər, Laçın və Daşkəsən rayonları istiqamətində ümumilikdə 2780 km-dən çox yol qar örtüyündən təmizlənib.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

**(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)**

## **Mövzu:** Dövlətçilik tariximiz. Azərbaycan Atabəylər və Səfəvilər dövləti

**Suallar:**

**1. Dövlətçilik tariximiz.**

**2. Azərbaycan Atabəylər dövlətinin yaranması və inkişafı.**

**3. Səfəvilər dövlətinin yaranması və Azərbaycan tarixində onun yeri.**

### Dövlətçilik tariximiz

VII əsrin əvvəllərində Azərbaycanın şimalında - Albaniyanın Girdiman vilayətində mərkəzi Partav şəhəri (indiki Bərdə şəhəri) olmuş Mehranilər sülaləsinin (sabirlər adlı türk tayfaları) hökmranlığı başlandı. VII əsrin 60-cı illərində Xilafətdə Əməvilər sülaləsinin nümayəndələri hakimiyyətə gəldikdən sonra müharibələri gücləndirdilər. Şimaldan xəzərlərin yürüşü, cənubdan isə Sasani feodallarının hücumu Cavanşirin (642-681-ci illər Girdiman vilayəti) Xilafətə qarşı münasibətini dəyişdi. Cavanşir uzaqgörən xarici siyasəti ilə Azərbaycanın şimal torpaqlarını - Albaniyanı Ərəb xilafətinin, Bizansın, Sasanilərin və xəzərlərin işğallarından xilas etdi. Lakin müstəqilliyə can atan bizanspərəst feodallar sui-qəsd təşkil edərək 681-ci ildə Cavanşiri qətlə yetirdilər. 705-ci ildə ərəblərin hücumu nəticəsində Albaniyanın daxili müstəqilliyi ləğv edildi.

Sasani imperiyası dağıldıqdan sonra ərəblər Azərbaycanın işğalını genişləndirdilər. Azərbaycan uğrunda ərəblərlə xəzər türkləri arasında başlayan müharibələr VIII əsrdə daha da şiddətləndi. Ərəb işğalları və İslam dininin Azərbaycanın bütün ərazisində yayılması əvvəlki dinləri tam sıxışdırıb çıxara bilmədi. Lakin İslam dininin yayılması xalqın taleyində misilsiz dönüş yaratdı. İqtisadi və siyasi sabitlik yarandı.

Xilafətə tabe olan ölkələrdə azadlıq müharibələri genişlənmiş, mərkəzə tabe olmaq istəməyən qüvvələrin sayı artmışdı. Azərbaycan Xilafətə qarşı azadlıq hərəkatının başlıca mərkəzlərindən biri idi. Xilafətə qarşı mübarizə Sasani imperiyasını zəiflətdi və Azərbaycanda bir sıra yerli feodal dövlətləri: Şirvanşahlar, Sacilər, Salarilər, Şəddadilər, Rəvvadilər dövlətləri yarandı. Azərbaycanın qədim dövlətçilik ənənələri dirçəldi. Bu dövlətlərlə yanaşı, Şəki hakimliyi, Dərbənd və Tiflis əmirlikləri kimi nisbətən kiçik dövlətlər də yaranmışdı. Bu dövlətlərin hamısında İslam dini rəsmi din olmuş, Azərbaycan xalqının təşəkkülü üçün vacib olan vahid türk dili və türk-islam mədəniyyəti formalaşmışdı.

XI əsrin ortalarında Azərbaycanda fəaliyyət göstərən Şirvanşahlar, Şəddadilər və Rəvvadilər dövləti arasında siyasi və iqtisadi əlaqələr zəif idi. Orta və Yaxın Şərqdə yaranan Səlcuqilər imperiyası Orta Asiya, İran, İraq, Suriya, Misir, Ön Qafqaz xalqları ilə birlikdə Azərbaycanı da hakimiyyəti altına keçirtdi. XII əsrin 20-30-cu illərində Səlcuq sultanları arasında hakimiyyət uğrunda mübarizə nəticəsində mərkəzi hakimiyyət zəiflədi və nəticədə XII əsrin 30-cu illərində xalqımızın etnik-siyasi tarixində xüsusi çəkiyə malik olan Azərbaycan Atabəylər dövləti yarandı.

XV-XVIII əsrlərdə Azərbaycanın dövlətçilik mədəniyyəti daha da zənginləşdi. Bu dövrdə Şərqin geniş ərazili Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətləri bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunurdu. Bu mühüm amil dövlətin daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərir, onun hərbi-siyasi təsir dairəsini, Azərbaycan dilinin fəaliyyət meydanını genişləndirir, xalqın maddi və mənəvi mədəniyyətinin daha da inkişaf etməsinə əlverişli şərait yaradırdı. XV əsrin sonu-XVI əsrin əvvəllərində Azərbaycan dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoydu. Görkəmli dövlət xadimi Şah İsmayıl Xətai bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirərək paytaxtı Təbriz şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan dövləti - Səfəvi dövlətini yaratdı. Şah İsmayıl, Şah Təhmasib və digər Səfəvi hökmdarlarının fəaliyyəti, uğurlu daxili və xarici siyasəti nəticəsində Səfəvi dövləti qısa müddətdən sonra Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrildi.

### Azərbaycan Atabəylər dövlətinin yaranması və inkişafı

Azərbaycan Atabəylərinin idarə etdiyi Eldəgizlər dövləti (1136-1225) Azərbaycan tarixində İldənizlər və ya Eldəgəzlər dövləti kimi də tanınır. Atabəy Şəmsəddin Eldənizin adı ilə bağlı olan Atabəylər dövlətinin ərazisi İraqı, İranı və Kür çayından cənubdakı, Azərbaycan torpaqları da daxil olmaqla, cənubi Qafqazın bir hissəsini əhatə edirdi. Səlcuq sultanı II Toğrul (1132-1134) Şəmsəddin Eldənizə "əmir" titulu verdi və onu öz oğlu Arslan şahın atabəyi təyin etdi. 1136-cı ildə o, Arran hakimi təyin olundu və Bərdəyə göndərildi. Bununla müstəqil Azərbaycan Eldənizlər dövlətinin və bu dövləti idarə edən Eldənizlər sülaləsinin əsası qoyuldu. Şəmsəddin Eldəniz bir çox xırda feodal mülklərini aradan qaldıraraq bütün Azərbaycanı öz hakimiyyəti altında birləşdirdi. O, sultan sarayından iqta aldığı Arranla yanaşı, Azərbaycanın bəzi cənub bölgələrini, habelə Naxçıvanı müstəqil idarə etməyə və öz adından pul kəsdirməyə başladı. Paytaxt əvvəllər Naxçıvan şəhəri idi. 1160-cı ildə Şəmsəddin Eldəniz "Böyük Atabəy" titulunu aldıqdan sonra bütün İraq Səlcuq sultanlığını özü idarə etməyə başladı. Böyük oğlu Məhəmməd Cahan Pəhləvan sultanın hacibi, kiçik oğlu Qızıl Arslan isə ordunun ali baş komandanı təyin edildi. Beləliklə, İraq Səlcuq sultanlığı Azərbaycan sultanlığına çevrildi. Şirvanşahlar dövləti və Azərbaycan üçün daim təhlükə yaradan gürcü torpaqları da Eldənizlər dövlətinin tərkibinə daxil edildi. Şəmsəddin Eldənizin hakimiyyətinin sonuna yaxın Eldənizlər dövləti Dərbənd keçidindən İran körfəzinə qədər çox geniş əraziləri - Azərbaycanı, o cümlədən Arran və Şirvan, İraq, Həmədan, Gilan, Mazandaran, İsfahan və Reyi əhatə edirdi. Mərkəzi hakimiyyətdən iqta almış əmirlərin hərbi qüvvələrindən başqa, hökmdarın özünün 50 min nəfərlik nizami süvari qoşunu vardı.

Səlcuq Sultanı III Toğrulun (1176-1194) atabəyi olan Məhəmməd Cahan Pəhləvan (Şəmsəddinin oğlu) hakimiyyətə gəldikdən sonra (1175-1186) paytaxtı Naxçıvandan Həmədana köçürdü (1175), həmin ili Təbrizi Ağsunqurilərin azad edərək mərkəzi hakimiyyəti daha da qüvvətləndirdi. Azərbaycanı onun kiçik qardaşı Qızıl Arslan idarə edirdi. Məhəmməd Cahan Pəhləvandan sonra hakimiyyətə keçən qardaşı Qızıl Arslan (1186-1191) uzun müddət taxt-tacı ələ keçirməyə cəhd edən saray müxalifətinə və iri feodallara qarşı mübarizə apardı. Mərkəzi hakimiyyətin qüvvətlənməsindən narazı qalan iri feodallar və İnanc Xatın Qızıl Arslanı sui-qəsdlə (1191) öldürdülər. Azərbaycanda hakimiyyəti Əbu Bəkr (1191-1210) ələ keçirdi. Məhəmməd Cahan Pəlavanın digər oğulları Qutluq İnanc və Əmir Əmiran Ömərin idarə etdikləri İsfahan, Rey vilayətləri və İraqın bir hissəsi Eldənizlər dövlətindən ayrıldı. Parçalanmalar dövlətin tənəzzülünü sürətləndirdi. Vəziyyətdən istifadə edən Xarəzmşahlar, Əyyubilər, Abbasilər, Şirvanşahlar və gürcü çarları fəallaşdılar. Gürcü qoşunları 1203 və 1210-1211-ci illərdə Azərbaycan torpaqlarına dağıdıcı basqınlar etdilər. Onlar Qərbi Azərbaycanı və Naxçıvanı mühasirəyə aldılar, lakin ələ keçirə bilmədilər. Sonra Mərəndi talan etdilər, Təbrizi mühasirəyə aldılar. Şəhər hakimi Zahidə Xatın (Məhəmməd Cahan Pəhləvanın arvadı) çoxlu pul, daş-qaş və sənətkarlıq məhsulları verib şəhəri dağıntıdan qurtardı. Özbəyin (1210-1225) hakimiyyəti illərində Eldənizlər dövlətinin süqutu daha da sürətləndi. Beləliklə, monqolların hücumu ərəfəsində Azərbaycan dövlətlərindən heç biri nə Eldənizlər, nə də Şirvanşahlar ölkəni xarici təhlükədən qorumağa qadir deyildilər. 1206-cı ildə Çingiz xan tərəfindən Mərkəzi Asiyada yaradılmış Monqol dövləti hərbi yürüşlərə başladı. 1220-ci ildə monqol qoşunu Cəbə və Subutayın rəhbərliyi ilə Azərbaycan torpaqlarına daxil oldu və Təbrizə çatdı. Şəhər möhkəm qala divarları ilə əhatə olunduğundan monqollar danışığa girməyə üstünlük verdilər.

1221-ci ilin əvvəllərində Marağaya və 1222-ci ildə Şamaxıya hücum edən monqollar şəhərləri talan etdilər. Bu hadisədən sonra monqollar şimala üz tutdular. Dərbəndi tuta bilməyəcəklərini anlayıb Azərbaycanı tərk etdilər. Yeni torpaqlarda möhkəmlənmək istəyən Xarəzmşah şahzadəsi Cəlaləddin 1225-ci ildə Azərbaycana hücum etdi. Atabəylərin sonuncu hökmdarı Özbək Naxçıvana, Əlincə qalasına yollandı. Başsız qalan Təbriz əhalisi bir həftə döyüşdü və Cəlaləddin qələbə qazandı. Təbriz, daha sonra isə Gəncə zəbt edildi və bununla da Atabəylər dövləti süquta uğradı.

### Səfəvilər dövlətinin yaranması və Azərbaycan tarixində onun yeri

Azərbaycan dövlətçiliyi tarixində Səfəvilər dövlətinin özünəməxsus yeri vardır. Bu tarixi mübarizə Şeyx Səfiəddindən sonra sülalənin görkəmli başçıları, o cümlədən Şah İsmayılın (1487-1524) dövründə kəskin xarakter aldı. Səfəvilərin Ərdəbil hakimliyindən sonrakı dövrünü onların Azərbaycanın siyasi həyatında mühüm rol oynaması, bütün Azərbaycanda hakimiyyətin yaranması və möhkəmlənməsi dövrü kimi qiymətləndirmək olardı. Məhz Səfəvilərin Ərdəbil hakimiyyəti mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılması yolunda başlanğıc rolunu oynamışdır. XV əsrin ortalarından etibarən Səfəvilər daha fəal siyasət yeritməyə başladılar. Onlar uğurlu hərbi yürüşlər keçirərək böyük qənimətlər əldə edir və öz mövqelərini möhkəmləndirirdilər. Əsrin II yarısında artıq Muğanın bir hissəsi, Qarabağ və Azərbaycanın Talış dağlarına qədər olan şərq torpaqları onların təsiri altına düşmüşdü. Həm də Səfəvilərin ayrı-ayrı nümayəndələri tarix səhnəsində daha ruhani başçısı kimi yox, siyasi xadim kimi çıxış edirdilər. Səfəvilərin hakimiyyəti Ərdəbil dövründən (1501) başlanır və 1736-cı ilə qədər (Nadir şah elan olunur və Səfəvilər sülaləsinin hakimiyyətinə son qoyulur) davam edir.

Səfəvilərin hakimiyyəti Şah İsmayılın dövründə daha da gücləndi. Səfəvilər ərazilərini genişləndirmək məqsədilə birinci zərbəni Şirvanşahlara vurmaq qərarına gəldilər. 1500-cü ilin payızında qızılbaşlar (səfəvilər) Kürü keçib Şirvan ərazisinə daxil oldular. Şirvanşahlar dövləti məğlub edildikdən sonra İsmayıl Bakı üzərinə hücuma keçərək onu ələ keçirdi. 1501-ci ilin ortalarında Naxçıvan ərazisində Ağqoyunlular və Səfəvilər arasında həlledici döyüş baş verdi. Bu döyüşdə İsmayıl əsl sərkərdəlik məharəti göstərərək qələbə qazandı. Həmin qələbədən sonra, 1501-ci ilin payızında İsmayıl təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan etdi. Beləliklə, paytaxt Təbriz olmaqla Səfəvilər dövlətinin əsası qoyuldu. Azərbaycan Səfəvilər dövlətinin özəyi idi. 1503-cü ildə Ağqoyunlu dövlətinin varlığına son qoyan şah İsmayıl Əlvənd üzərində qələbə ilə İran və Əcəm İraqının xeyli hissəsinə yiyələndi. Bu dövlətdə əhalinin etnik və mədəni birliyə malik çoxluğunu Azərbaycan türkləri təşkil edirdilər. Azərbaycan etnik ünsürü dövlətin siyasi həyatında rəhbər rol oynayırdı. XVI əsrin ortalarına yaxın dövlətin 74 əmirindən 69-u Azərbaycan türkü idi. Ordu da əsasən Azərbaycan tayfalarından təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmalarda Azərbaycan türkcəsindən istifadə olunurdu.

Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Bu ölkənin təsərrüfat həyatı üçün şərait yaratdı, yadellilərə qarşı xalqın mübarizəsini asanlaşdırdı.

Səfəvilər dövlətinin meydana çıxması və onun qüdrətinin artması Osmanlı İmperiyasını narahat edirdi. Osmanlı İmperiyasının sultanı II Bəyazid Şah İsmayıla qarşı müharibəyə başlamaqdan imtina edərək, 1504-cü ildə bu dövləti tanıdı. Bununla belə, Osmanlı İmperiyası ilə Səfəvilər dövləti arasındakı müharibənin başlanmasına maraqlı olan xristian dövlətləri Almaniya, Fransa, Portuqaliya, İspaniya, Skandinaviya dövlətləri, eləcə də Roma Papası çox istəyirdilər və bunu da, "Allahın xristian dünyası üçün yaratdığı bir fürsət" kimi qiymətləndirilmiş, bundan da dərhal istifadə etməyə çalışmışdılar. 1514-cü il avqustun 24-də Çaldıran düzündə tarixin ən qanlı qardaş qırğını, türk dünyasının ümumi faciəsi, Qərb diplomatiyasının isə qələbəsi oldu. Bu döyüşdə Səfəvilər məğlub olaraq Ərzurum şəhəri ilə birlikdə Şərqi Anadolunu və Şimali İraqı itirdilər.

Şah İsmayılın ölümündən sonra onun oğlu I Təhmasib taxta çıxdı (1524-1576). Süleyman Qanuninin (1520-1566) vaxtında Osmanlı ali təbəqəsi öz nüfuz dairələrini şərq istiqamətində genişləndirir, qarşılıqlı hücumlar ara vermir, illərlə davam edirdi. Nəhayət, 1555-ci il mayın 29-da Amasiyada Səfəvi-Osmanlı müharibəsinin birinci mərhələsini başa çatdıran sülh müqaviləsi imzalandı.

XVI əsrin 70-ci illərindən etibarən Osmanlı işğalının yeni dövrü başlandı. 1586-1589-cu illərdə bütün Azərbaycan Sultan II Muradın ordusu tərəfindən zəbt olundu. 1590-cı ildə imzalanan İstanbul sülh müqaviləsinə görə, Azərbaycandan əlavə indiki Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri Osmanlı imperiyasına verildi və Səfəvilər dövləti süquta uğradı.

1639-cu il mayın 17-də Qəsri-Şirində imzalanmış sazişə görə Səfəvi-Osmanlı müharibəsinə son qoyuldu. Ərəb İraqı Osmanlılara, Zəncir qalasından şərqdəki torpaqlar Səfəvilərə verildi. Səfəvilər Van və Qars qalalarına, həmçinin Ahalsixa hücum etməyəcəklərinə dair təminat verdilər. Səfəvilər dövlətinin süqutundan sonra Azərbaycan torpaqları parçalandı və ayrı-ayrı ərazilərdə xanlıqlar yaranmağa başladı.

Tariximizin hansı səhifəsini vərəqləsək, orada igid babalarımızın keçdiyi qəhrəmanlıq yollarının izinə rast gələrik. Çünki yaşadığımız torpağı qorumaq üçün Vətən uğrunda mübarizə amili vətənpərvərliyi şərtləndirir. Vətənpərvərliyin tarixi kökündə min illər boyu yaşamış, möhkəmlənmiş, öz ana torpağına, dilinə və adət-ənənələrinə bağlanmış dövlətçilik durur. Azərbaycanda dövlətçilik ənənələrinin məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən bərpa edilməsi və onun siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fəaliyyəti sayəsində inkişaf etdirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi, onun əbədi və dönməz xarakter alması, beynəlxalq nüfuzunun sürətlə artması mümkün olub.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# “Deprem bayatıları” adlı videoçarx hazırlanıb

Türkiyədə baş vermiş dəhşətli zəlzələnin ilk dəqiqələrindən Azərbaycanın rəhbərliyi başda olmaqla, bütün xalqımız qardaş ölkənin yanında olmaqla öz mənəvi və maddi dəstəyini göstərməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əsrin ən böyük zəlzələsinin baş verdiyi gün Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana Kahramanmaraşda baş vermiş və bir çox bölgələrində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan təlafatı və dağıntılar barədə xəbərdən olduqca kədərləndiyini bildirərək bu ağır zamanda hər cür yardım göstərməyə hazır olduğunu bildirmiş, faciə ilə əlaqədar R.T.Ərdoğana, həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı vermiş, yaralılara şəfa diləmiş, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulamışdı.



Kədəri kədərimiz, sevinci sevincimiz olan qardaş Türkiyəyə dəstəyimiz bu gün də davam etməkdədir. Hər kəs əlindən gələn köməyi əsirgəmir və zəlzələnin vurduğu yaraların tezliklə sağalacağına əminliyini bildirir.

Bu təbii fəlakət yaradıcı insanlara da təsirsiz ötüşməyib.

AZƏRTAC "Azərbaycan-Türkiyə qardaşlığının təntənəsi", "Azərbaycan yalnız deyil" kitablarının, eləcə də "Azərbaycan-Türkiyə" (bəstəkar: Əməkdar incəsənət xadimi Nailə Mirməmmədli), "Qardaşlıq nəğməsi" (bəstəkar: Əməkdar incəsənət xadimi Gövhər Həsənzadə) mahnılarının, eləcə də Türkiyədə meşə yanğınlarına həsr olunan "Azərbaycan yanındadır, Türkiyəm!" layihəsinin müəllifi Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin zəlzələ qurbanlarının xatirəsinə həsr etdiyi "Deprem bayatıları" adlı şeiri əsasında hazırlanan videoçarxı ilk olaraq təqdim edib.

Görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin məşhur musiqisinin müşayiəti ilə müəllifin səsləndirdiyi "Deprem bayatıları"nda Azərbaycan və Türkiyə xalqlarının dostluq və qardaşlığının əbədi, sarsılmaz olduğu bir daha öz əksini tapıb.

Videoçarxda səsləndirilən "Deprem bayatıları"nı oxuculara təqdim edirik.

**"Azərbaycan Ordusu"**

***Abdulla Qurbani***

DEPREM BAYATILARI

*Qardaş Türkiyədə baş verən əsrin ən böyük zəlzələsinin qurbanlarının xatirəsinə*

Kədərin kədərimdi,
Qəmin qəmimdi, qardaş.
Yarana qurban olum,
Yaran dərindi, qardaş.

Qərib, miskin görkəmdə
Görməyəydim səni kaş.
Gözmü, nəzərmi dəydi,
Canım Kahramanmaraş.

Qaziantep, Diyarbakır,
Bu fəryad, nalə nədir?
Acın mənim öz acım,
Halın ürək göynədir.

Belə qiyamət olmaz,
Gözəlim Osmaniyyə.
Harayıma haray ver,
Niyə dinmirsən, niyə?

* * *

Anam gəl, ay anam gəl,
Yandı bağrım tamam, gəl!
Toz-torpaq altındayam,
Yaman pərişanam, gəl!

Elbistana qar yağır,
Burda qəlbim üşüyür.
Gözü yolda qalan var,
Yüyür, karvanım, yüyür!

Canım, gözüm, Adana,
Qurban olum adına.
Ürəyim yaralıdı,
Çatanmıram dadına.

Şanlıurfa, canımsan,
Şöhrətimsən, şanımsan.
Dilimiz, dinimiz bir,
Damarımda qanımsan.

Kilis, başıbəlalım,
Üstündən duman getmir.
Səni soraqlayıram,
Əl çatmır, ünüm yetmir.

Bura Adıyamandı,
Dəymə, halı yamandı.
Xınalı quzum, laylay...
Yandı, ciyərim yandı.

Qışdan sonra yaz gələcək,
Malatya, qan ağlama.
Yal-yamaclar güllənəcək,
Hatay, sinəmi dağlama.

Bu külək hardan əsdi,
Əsib yolumu kəsdi.
Bu yaran da sağalar,
Gəl ağlama, Türkiyəm,
Ağlama, daha bəsdi.

Dost var, düşmən var, dik dur,
Məğrur dayan, Türkiyəm!
Dar gündə yanındayam,
Sənin doğma qardaşın,
Mən o taylı, bu taylı
Azərbaycan türküyəm!
Canım da sənə qurban!
Məğrur dayan, Türkiyəm!
Məğrur dayan, Türkiyəm!

# Xalqımızı yeni qələbələrimizlə sevindirəcəyik

Qoynunda dünyaya göz açdığım Cəlilabad rayonunun Pərdi kəndinin də Vətən qeyrəti çəkən oğulları Birinci Qarabağ müharibəsində torpaqlarımızın azadlığı uğrunda vuruşmuşdular. Onlar yurdumuzu erməni işğalçılarından müdafiə edərkən nəsillərə nümunə olacaq böyük igidlik və qəhrəmanlıqlar göstərmişdilər. Mən anadan olanda - 15 aprel 1996-cı ildə artıq döyüşlər dayanmış, atəşkəs elan olunmuşdu. Yaşa dolduqca qeyrətli oğulların igidliyi, hünəri ilə öyünərdik. Böyüyəndə onlar kimi qəhrəman, cəsur olacağımıza söz verərdik.

Sanki illər bir göz qırpımında ötüb arxada qaldı. Böyüdük və bir zamanlar verdiyimiz sözü yerinə yetirməyin vaxtı gəlib çatdı. Gələcəkdə hərbçi olmaq, torpaqlarımızın keşiyində dayanmaq, sələflərimizin qəhrəmanlıq ənənələrini şərəf və ləyaqətlə davam etdirmək üçün 2011-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul oldum. Üç il Hərbi liseydə təhsil aldım. Həmin illər mənim üçün olduqca səmərəli keçdi. Bu müddət ərzində təhsil ocağında başqa fənlərlə yanaşı, hərbi bilik və vərdişləri də mənimsədim.

2014-cü ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul oldum. Bu təhsil ocağında hərbi biliklərimi daha da təkmilləşdirdim. Yerüstü artilleriya qurğusunun sirlərinə dərindən yiyələndim. 2018-ci ildə ali hərbi təhsilimi başa vurduqdan sonra "leytenant" rütbəsi verildi. Elə həmin il taqım komandiri kimi "N" hərbi hissəsində xidmətə başladım.

Artıq arzuma çatmışdım. Zabit kimi doğma ordumuzun sıralarında xidmət edirdim. Özümü Birinci Qarabağ müharibəsində vuruşan oğulların davamçısı kimi hiss edirdim.

Torpaqlarımızın uzun müddət erməni işğalında qalması zabit kimi məni çox narahat edirdi. Buna görə də təlimlərdə aktiv iştirak edir, torpaqlarımızın azad olunacağı günə hazırlaşırdım. Cəbhədə isə vəziyyət getdikcə gərginləşirdi. Ermənilər tez-tez təxribat törədir, atəşkəs rejimini pozurdular. 27 sentyabr 2020-ci ildə işğalçılar daha bir genişmiqyaslı təxribata əl atdılar. Nəticədə İkinci Qarabağ müharibəsi başlandı. Hərbi hissəmizin şəxsi heyəti də döyüşlərə cəlb olundu. İlk döyüşlərimiz Ağdam rayonu istiqamətində oldu. Bir müddətdən sonra bizi Xocavənd rayonuna göndərdilər. Başqa istiqamətlərdə olduğu kimi, burada da erməni işğalçıları geri sıxışdırılırdı. İşğalçılar böyük strateji əhəmiyyətə malik olan Qızılqaya yüksəkliyindən çıxmaq istəmirdilər. Onların yüksəklikdə olan bütün mövqelərini artilleriya zərbələri ilə darmadağın etdik. Düşmənin geri çəkilməkdən başqa yolu qalmadı. Beləcə, qızğın döyüşlərdən sonra erməniləri Qızılqaya yüksəkliyindən qovduq. Bundan sonra qoşunlarımızın irəliləməsi üçün əlverişli şərait yarandı.



Deməl olar ki, hər gün yeni yaşayış məntəqələrini erməni işğalından azad edirdik. Torpaqlarımızın hər addımı uğrunda vuruşurduq. Zabit və əsgərlərimiz döyüşlərdə böyük qəhrəmanlıqlar göstərirdilər. Bunun sayəsində torpaqlarımız işğaldan azad olundu. İkinci Qarabağ müharibəsi qələbəmizlə başa çatdı.

Vətən müharibəsində göstərdiyim cəsarətə və qəhrəmanlığa görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə "Xocavəndin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" və "İgidliyə görə" medallarına layiq görülmüşəm.

Düşmən üzərində qazandığımız qələbələr bizi arxayınlaşdırmır. Əksinə, xidmətə məsuliyyətimizi daha da artırır. Müntəzəm olaraq təlim-məşqlərdə də bu amalla iştirak edirik. Əminəm ki, xalqımızı yeni qələbələrimizlə sevindirəcəyik.

**Baş leytenant**
**Emin QULİYEV**
**"N" hərbi hissəsi**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə zəlzələ nəticəsində ölənlərin sayı 38 mini ötüb



Türkiyədə zəlzələ nəticəsində ölənlərin sayı 38 min 44 nəfərə çatıb.

Bu barədə ölkənin Fövqəladə Halların İdarə Olunması Agentliyi məlumat yayıb.

Qeyd edək ki, fevralın 6-da yerli vaxtla saat 04:17-də Türkiyənin Kahramanmaraş vilayətinin Pazarcık rayonunda 7,7 bal, saat 13:24-də isə Elbistan rayonunda 7,6 bal gücündə iki zəlzələ baş verib. Dərinliyi 7 kilometr olan zəlzələ 10 vilayətdə ciddi dağıntılara səbəb olub. Zəlzələdən zərər çəkmiş 10 vilayətdə üç ay müddətinə fövqəladə vəziyyət rejimi elan olunub. Həmçinin Türkiyədə bir həftəlik matəm elan olunub.

## ABŞ Ukraynaya döyüş təyyarələrinin çatdırılmasına icazə verib



ABŞ Rusiya ilə münaqişə uzandıqca öz döyüş təyyarələrini Ukraynaya göndərə və ya digər ölkələrdə xidmətdə olan F-16 qırıcılarının təkrar ixracına icazə verə bilər.

Bu barədə Britaniyanın "Financial Times" qəzeti məlumat yayıb.

Bildirilib ki, qırıcı təyyarələrin tədarükü bu gün NATO müdafiə nazirlərinin Brüsseldə keçiriləcək görüşündə müzakirə olunacaq.

Xatırladaq ki, ABŞ Prezidenti Co Bayden yanvarın 31-də bildirmişdi ki, Vaşinqton F-16 qırıcılarını Ukraynaya verməyəcək. Nəşr qeyd edir ki, Kiyev hakimiyyəti Qərb döyüş təyyarələrini almağı uzunmüddətli məqsəd kimi nəzərdən keçirir, hazırda isə əsas diqqət Ukraynaya döyüş sursatlarının göndərilməsinə yönəlib.

## Yaponiya ABŞ-dan qanadlı raketlər alır



Yaponiya hökuməti "Tomahawk" qanadlı raketlərinin alınması üçün ABŞ-la müqavilə bağlamaq niyyətindədir.

Bu barədə Yaponiyanın müdafiə naziri Yasukazu Hamadaya istinadla Kyodo agentliyi məlumat yayıb.

Bildirilib ki, Tokio 500-ə yaxın raket almağı planlaşdırır.

"Biz böyük miqdarda raketin alqı-satqısına dair müqavilesi imzalamaq niyyətindəyik", - deyə nazir qeyd edib.

Hamada Yaponiya tərəfinin əldə etmək niyyətində olduğu raketlərin dəqiq sayını açıqlamasa da, Kyodo agentliyi 2023-cü maliyyə ilində (aprelin 1-dən başlayır) Tokionun 500-ə yaxın "Tomahawk" raketinin alınmasını planlaşdırdığını vurğulayıb.

## Britaniya Müdafiə Nazirliyi hərbi büdcənin 20 faiz artırılmasını istəyir



Böyük Britaniyanın müdafiə naziri Ben Uolles Ukraynadakı münaqişə və yüksək inflyasiya ilə bağlı yaxın iki ildə krallığın hərbi büdcəsinin 20 faiz artırılmasının tərəfdarıdır.

"The Times" nəşri xəbər verir ki, Ben Uolles maliyyə naziri Ceremi Hantdan illik müdafiə büdcəsini 8 milyard funt-sterlinqlə (9,6 milyard ABŞ dolları) 11 milyard funt-sterlinq arasında (13,2 milyard ABŞ dolları) artırmağı tələb edir.

Hazırda Britaniyanın hərbi büdcəsi ildə 48,6 milyard funt-sterlinq (58,5 milyard ABŞ dolları) təşkil edir. Daha əvvəl açıqlanan planlara görə, 2025-ci ilə qədər ölkənin müdafiəsinə ayrılacaq vəsait 700 milyon funt-sterlinq (845 milyon ABŞ dolları) olacaq.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə Hərbi tibb və Hərbi feldşer işi ixtisasları üzrə 2023-2024-cü tədris ili üçün qəbul qaydaları

**I. ÜMUMİ MÜDDƏALAR**

**Tədris dili**: Azərbaycan dili

**Təhsil forması**: əyani

**Hərbi tibb və Hərbi feldşer işi** ixtisasları üzrə **Hərbi Tibb Fakültəsinə** qəbul üçün keçiriləcək test imtahanına hərbi həkim komissiyasından hərbi xidmətə yararlı qərarı ilə keçmiş namizədlər buraxılır.

**Təhsil müddəti:**

**Hərbi tibb ixtisası** - 6 il

Hərbi Tibb Fakültəsinə qəbul olan şəxslər ödənişsiz əsaslarla təhsil alırlar.

**Hərbi tibb** ixtisası üzrə qəbul olmuş şəxslər **4-cü kursadək** təhsil aldıqdan sonra Hərbi andı qəbul edirlər və bütün növ təminatlarla təmin edilirlər.

Hərbi tibb ixtisası üzrə qəbul olmuş şəxslər 4-cü kursadək ayda 90 AZN, son 2 ili isə ayda 181 AZN məbləğində müavinət alırlar. Təhsili və intizamı ilə fərqlənən əlaçı kursant və tələbələrin aylıq müavinətlərinə müvafiq qaydalara uyğun əlavələr edilir.

**Hərbi feldşer işi ixtisası üzrə:**

**Təhsil müddəti** - 3 il

**Hərbi feldşer işi** ixtisası üzrə **Hərbi Tibb Fakültəsinə** qəbul olanlar təhsil müddətində bütün təminat növləri ilə təmin olunur və ayda 243 AZN məbləğində müavinət alırlar.

**Yaş həddi: Hərbi tibb və Hərbi feldşer işi** ixtisası üzrə **Hərbi Tibb Fakültəsinə** cari ildə ümumtəhsil müəssisələrində tam orta təhsil səviyyəsini bitirmiş, qəbul ilində **17 yaşı tamam olan və 20 yaşı tamam olmayan**, habelə **18 yaşından 23 yaşınadək** müddətli həqiqi hərbi xidmət keçmiş hərbi vəzifəli Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları qəbul edilirlər.

**II. SƏNƏDLƏRİN QƏBULU**

**Hərbi tibb və Hərbi feldşer işi** ixtisası üzrə **Hərbi Tibb Fakültəsinə** qəbul olmaq istəyən namizədlər **1 aprel 2023-cü il tarixindən 30 aprel 2023-cü il tarixinədək** ərizə ilə fakültə rəisinə müraciət etməlidirlər.

**Ərizəyə aşağıdakı sənədlər əlavə olunmalıdır**:

- abituriyentin təsdiq olunmuş elektron ərizəsindən çıxarış;
- şəxsən yazılmış tərcümeyi-hal (əlyazma ilə 1 nüsxə və çap edilmiş 2 nüsxədə);
- oxuduğu təhsil müəssisəsindən (iş və ya yaşayış yerindən) verilmiş xasiyyətnamə;
- tam orta təhsil haqqında sənədin notarial qaydada təsdiq edilmiş surəti (cari ilin məzunları üçün arayış);
- doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin notarial qaydada təsdiq edilmiş surəti;
- nikah haqqında şəhadətnamənin notarial qaydada təsdiq edilmiş surəti (evli olduqda);
- uşaqların doğum haqqında şəhadətnamələrinin notarial qaydada təsdiq edilmiş surəti (uşaq olduqda);
- ailə tərkibi və yaşayış yeri haqqında arayış;
- rəngli fotoşəkil (baş geyimsiz, anfas) - 6 ədəd 3x4sm və 2 ədəd 4.5x6sm ölçüdə;
- 18 yaşı tamam olmayan namizədlər üçün valideynlərin və ya qəyyumlarının notarial qaydada təsdiq edilmiş razılıq ərizələri;
- elektrokardioqramma;
- qanın ümumi analizi, qan qrupu və rezus-faktor;
- qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara dair müayinələrinin nəticələri;
- qanın hepatit C və hepatit B-yə dair müayinələrinin nəticələri;
- sidiyin ümumi analizi;
- psixonevroloji, narkoloji, vərəm və dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar.

**Şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, hərbi qeydiyyat haqqında sənəd və tam orta təhsil haqqında sənədin əsli namizəd tərəfindən şəxsən təqdim edilir.**

**Qeyd**: Namizədlər hər hansı səbəbdən Hərbi Tibb Fakültəsindən xaric edilərlərsə, Azərbaycan Tibb Universitetindən xaric ediləcəkləri və ali təhsilə bərpa edilməyəcəkləri barədə öhdəlik götürürlər.

**III. HƏRBİ TİBB FAKÜLTƏSİNƏ QƏBUL AŞAĞIDAKI QAYDADA HƏYATA KEÇİRİLİR**

Namizədlər **Müdafiə Nazirliyinin Mərkəzi Hərbi Poliklinikasında** hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından keçmənin tarixi sənəd qəbulu zamanı qəbul komissiyası tərəfindən bildirilir.

**Naxçıvan Muxtar Respublikasında** yaşayanlar hərbi həkim komissiyasından **Heydər Əliyev adına Hərbi Liseydə** (Naxçıvan şəhəri) keçməlidirlər.

Müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı qəbul imtahanında iştirak etmək üçün **Dövlət İmtahan Mərkəzinə** göndərilir.

**Hərbi tibb ixtisası üzrə**:

Namizədlər **Dövlət İmtahan Mərkəzi** tərəfindən keçirilən qəbul imtahanı verirlər. Qəbul imtahanları IV ixtisas qrupunun fənləri üzrə keçirilir.

**Hərbi feldşer işi ixtisası üzrə:**

Namizədlərin Hərbi Tibb Fakültəsinə qəbulu müvafiq tədris ilində tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı verən abituriyentlərin buraxılış imtahanında, digər abituriyentlərin isə müvafiq tədris ilində keçirilən qəbul imtahanında əldə etdikləri nəticələrə əsasən Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir.

Qəbul imtahanının tarixi Azərbaycan Respublikasının **Dövlət İmtahan Mərkəzi** tərəfindən müəyyənləşdirilir.

**Sənədlər Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsində qəbul olunur**.

**Ünvan**: Bakı şəhəri, Ceyhun Səlimov küçəsi 3. Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının ərazisi (əlaqə telefonu: 012-431-39-73).

**Naxçıvan Muxtar Respublikasında** yaşayanlar sənədlərini **Heydər Əliyev adına Hərbi Liseyə** (Naxçıvan şəhəri) təqdim edirlər (əlaqə telefonu: 036-544-00-15, 036-544-00-16).

# Azərbaycan Ordusunda daşqaldırma birinciliyi keçirilib





Müdafiə nazirinin təsdiq etdiyi 2023-cü il üçün hazırlıq planına əsasən, Azərbaycan Ordusunda daşqaldırma birinciliyi keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində keçirilən yarışda əvvəlcə Ümummilli Lider Heydər Əliyevin, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də qardaş Türkiyədə baş verən zəlzələ nəticəsində həyatını itirən bacı və qardaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra birincilikdə iştirak edən komandaların püşkatma mərasimi keçirilib. Hərbi qulluqçulara yarışın məqsədi və təhlükəsizlik qaydaları çatdırılıb.

Birincilikdə birdən və təkanla qaldırma üzrə 44 nəfər hərbi qulluqçu 8 komanda üzrə 6 çəki dərəcəsində mübarizə aparıblar.

# İdman

## UEFA Konfrans Liqası: "Qarabağ" pley-off mərhələsinin ilk oyununda "Gent"ə qalib gəlib



"Qarabağ" komandası fevralın 16-da UEFA Konfrans Liqasının pley-off mərhələsi çərçivəsində ilk oyununu Bakıda Belçikanın "Gent" komandası ilə keçirib. Tofiq Bəhramov adına Respublika stadionunda keçirilən matçda "Qarabağ" qələbə qazanıb.

Qarşılaşmadan əvvəl futbolçular meydana "Yanınızdayız" pankartı ilə çıxıblar. Eləcə də Türkiyədə və Suriyada baş vermiş zəlzələ nəticəsində həyatını itirənlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Qarşılıqlı hücumlar şəraitində keçən matçın birinci hissəsində hesab açılmayıb.

Matçın 78-ci dəqiqəsində Ağdam təmsilçisi hesabı açıb. Meydan sahiblərinin heyətində Leandro Andrade fərqlənib - 1:0. Oyunda başqa qol olmayıb və "Qarabağ" pley-off mərhələsinin ilk oyunundan qələbə ilə ayrılıb.

Qeyd edək ki, komandalar arasında cavab oyunu fevralın 23-də Gent şəhərində olacaq.

## Qadın şahmatçılar arasında Azərbaycan çempionu məlum olub



Qadın şahmatçılar arasında Azərbaycan çempionatında sonuncu - XI turun görüşləri keçirilib.

Son turda Nərmin Abdinova Xanım Balacayeva ilə heç-heçə oynayıb. Gülnar Məmmədova Ayan Allahverdiyevanı, Türkan Məmmədyarova Nurtən Nuriyevanı, Xəyalə Abdulla Ləman Hacıyevanı məğlub edib.

Liderlər qrupunda qərarlaşan Gövhər Beydullayeva ağ fiqurlarla Zeynəb Məmmədyarovanı məğlub etməklə birinci yeri təmin edib. Beləliklə 11 turda 7,5 xal toplayan Gövhər Beydullayeva ardıcıl ikinci dəfə Azərbaycan çempionatının qalibi olub.

## Azərbaycan atleti beynəlxalq turnirdə gümüş medal qazanıb



Azərbaycanın qadın atleti Yekaterina Sariyeva Serbiyanın paytaxtı Belqradda keçirilən "World Athletics Indoor Tour" (Silver Level) turnirində gümüş medal qazanıb.

Üçtəkanla tullanma növündə qüvvəsini sınayan idmançı 13.33 metr nəticəyə imza atıb. O, bu göstərici ilə fəxri kürsünün 2-ci pilləsinə qalxıb.

## "Böyük dəbilqə" turniri: Cüdoçumuz Orxan Səfərov gümüş medal qazanıb



Azərbaycan cüdoçusu Orxan Səfərov İsrailin Təl-Əviv şəhərində keçirilən "Böyük dəbilqə" turnirində final görüşünə çıxıb.

İdmançımız həlledici görüşdə Gürcüstan təmsilçisi Vaja Marqvelaşviliyə məğlub olaraq gümüş medalla kifayətlənib.

66 kiloqram çəki dərəcəsində mübarizə aparan Orxan Səfərov yarımfinalda gürcüstanlı idmançı Laşa Nadiradzeni məğlub edib.

Turnirin birinci günündə tatami üzərinə çıxan cüdoçumuz finala gedən yolda ardıcıl olaraq Hoakin Tovalyari (Argentina), David Qarsiya (İspaniya) və Denislav İvanovdan (Bolqarıstan) üstün olub.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları çavuş İbrahimov Asif Kazım oğluna məxsus AD № 0034111 nömrəli və əsgər Məmmədov Vüsal Loğman oğluna məxsus AD № 0056255 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktorun müavini**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 127
Nüsxə 4725